«TƏSDİQ EDİRƏM»

AzMİU-nun rektoru

prof. G.H.Məmmədova

«21» fevral 2022ci il

# AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ

## KEYFİYYƏTƏ NƏZARƏT MƏRKƏZİ haqqında

## ƏSASNAMƏ

Bu əsasnamə Azərbaycan Respublikasının Konstitutsiyası, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Ali Təhsil müəssisələrinin nümunəvi nizamnaməsi" haqqında Qərarı, "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanının 1.3-cü, "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 16 yanvar tarixli 994 nömrəli Sərəncamı, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrləri, kollegiyasının qərarları, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20 dekabr 2017-ci il tarixli 18-1 nömrəli qərarı təsdiqlənmiş Təhsil sahəsinə aid olan qulluqçu vəzifələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli, 9 nömrəli qərarı ilə təsdiq edilmişdir 1 nömrəli əlavə (Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi) və 10.06.2014-cü il tarixində 1105-A1-430 saylı qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində təsdiq olunmuş Azərbaycan Memarlıq və İnşaat Universitetinin (bundan sonra Universitet adlandırılacaq) Nizamnaməsi və normativ sənədləri əsasında hazırlanmışdır.

Bu əsasnamədə "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının Qanunları ilə müəyyən edilmiş dövlət siyasətinin əsas prinsipləri, məqsədləri və təhsilin səviyyələri, universitetlərdə təhsilverənlərin və təhsilalanların

elmi tədqiqat prosesinə fəal cəlb edilməsi yolu ilə elm və təhsilin inteqrasiyası, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından irəli gələn müasir təhsil sisteminin formalaşdırılması üzrə hədəflər, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda nəzərdə tutulan səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən təhsilverənin formalaşdırılması, nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması, müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmasını, dövlət ali təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi istiqamətləri nəzərə alınmışdır.

## 1. Ümumi müddəalar

**1.1.** “Keyfiyyətə nəzarət“ mərkəzi (bundan sonra - Mərkəz) Azərbaycan Memarlıq və İnşaat Universitetinin (bundan sonra - Universitetin) Elmi Şurasının 01.02.2021-ci il tarixli 13/ş-d nömrəli qərarı və Universitet rektorunun 25.01.2021-ci il 07/ş-d saylı əmri ilə yaradılmışdır.

**1.2.** Mərkəzin Universitetinin struktur bölməsi olub vəzifə bölgüsünə görə birbaşa universitetin rektoruna tabedir.

**1.3.** Mərkəzə rektorun əmri ilə təyin olunan müdir rəhbərlik edir.

**1.4.** Mərkəzin strukturu, ştat vahidinin sayı (şöbə müdiri, müdir müavini və mütəxəssislər) və ştat tarifi universitetin xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilir və rektorun əmrinə əsasən təsdiq edilir.

**1.5.** Universitetin uyğun struktur bölmələri ilə, o cümlədən digər şöbələrlə fakültələrlə və kafedralara qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Mərkəzin fəaliyyətinin məqsədi

**2.1.** Təhsilin keyfiyyətinə universitet nəzarətinin həyata keçirilməsində müvafiq struktur bölmələri ilə birlikdə iştirak etmək, bu sahədə fəaliyyəti əlaqələndirmək, keyfiyyətə nəzarətin müasir mexanizmlərini, qiymətləndirmə meyarlarını mütəxəssislərlə birlikdə işləyib hazırlamaq, aparılmış monitorinqlərin nəticələrini təhlil edərək inkişaf proqramlarını hazırlamaq.

**2.2.** Mərkəzin fəaliyyətinin məqsədi universitetdə effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək, keyfiyyət nəticələri və əhatəliliyinə görə ölkədə qabaqcıl universitetlər sırasında mövqe tutan təhsil sisteminin formalaşdırmaq, müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsinə nail olmaq.

**2.3.** Universitetin profilinə uyğun ixtisas sahələrində qanunvericilik aktlarına və inkişaf konsepsiyalarına uyğun tədris proqramların hazırlanması, həyata keçirilməsi və əmək bazarının tələblərinə cavab verən keyfiyyətli mütəxəssis hazırlığında iştirak etmək.

**2.4.** Universitetdə təhsilalanların elmi və praktiki biliklər əldə etməsi prosesinin effektivliyinin artırılması üçün praktiki tədbirləri planlaşdırmaq, təşkil etmək və onların nəticələrinə nəzarəti həyata keçirmək.

**2.5.** Universitet miqyasında yardımçı funksional xidmətlərin həyata keçirilməsini təmin etmək.

**2.6.** Universitetin bakalavryat və magistratura səviyyələrində tədrisin keyfiyyətinə nəzarət, onun daha da yüksəldilməsini və bu sahədə mütərəqqi təcrübələri tətbiq etməklə, rəqabət qabiliyyətli bacarıqlı, savadlı mütəxəssislərin hazırlığına imkan verən səmərəli tədris mühiti yaratmaq.

**2.7.** Pedaqoji kadrların keyfiyyət və kəmiyyət quruluşunu öyrənmək, analitik təhlili etmək, sistem halına salınmasını təşkil etmək.

**2.8.** Təhsilin keyfiyyət səviyyəsinin ölkədə qəbul olunan dövlət təhsil proqramlarına uyğun beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərini nəzərə alınmaqla inkişaf etdirmək.

## 3. Mərkəzin əsas funksiyaları

**3.1.** Tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə inkişaf konsepsiyalarının formalaşdırılması və onların həyata keçirilməsinə dair təkliflər hazırlamaqla yanaşı  icrasında iştirak edir.

**3.2.** Universitetdə təhsilalanların dövlət təhsil proqramına uyğun keyfiyyətli təhsil almaları məqsədi ilə tədris prosesinin monitorinqini həyata keçirir, təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə edilməsinə nərazət edir.

**3.3.** Universitetdə tədris olunan fənlərin proqramları və metodik vəsaitlərinin keyfiyyət ekspertizasının təşkil edir. Müvafiq qaydada razılaşma əsasında qabaqcıl istehsalatda çalışan mütəxəssisləri və təcrübəli elmi-pedoqoji kadırları ekspertlər komissiyalarına işə cəlb ediməsi, habelə digər əlaqədar sturuktur bölmələrin fəaliyyət sahəsi üzrə komissiyalar və işçi qruplar yaradılması haqqında təkliflər verir.

**3.4.** Tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələri işləyib hazırlayır.

**3.5.** Tədris prosesinin monitorinqi və tədris prosesinin təşkilində kafedralara və digər struktur bölmələrə metodiki yardım göstərir.

**3.6.** Tədris sənədlərinin (fənn proqramları, sillabus və metodiki vəsaitlərin) müasir standartlara uyğun işlənib hazırlanmasına, keyfiyyətinə və mütəmadi təkmilləşdirilməsinin həyata keçirilməsinə nəzarət edir.

**3.7.** Universitetdə təhsilin keyfiyyət səviyyəsinin ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və elmi-metodik təminatını, universitetin xüsusi vebportalını, qlobal kompüter şəbəkəsi (internet) üçün informasiya resurslarını yaradılmasında iştirak edir. Universitetdə tədris olunan fənlərin elektron bazasının (mühazirə, laborator və məşğələ materiallarının) yaradılmasına, təkmilləşdirilməsinə, eləcə də sillabuslara uyğunluğuna, bu materialların tələbələrin şəxsi kabinetinə yerləşdirilməsinə nəzarəti həyata keçirir.

**3.8.** Tələbələr (bakalavryatlar və magistrantlar) arasında tədrisin keyfiyyəti ilə əlaqədar sorğular keçirir, təhlil edir, mümkün təklifləri hazırlayır və rəhbərliyə təqdim edir.

**3.9.** Təhsilverənlər arasında Universitet haqqında ümumilikdə və tədrisin keyfiyyəti ilə əlaqədar sorğular keçirir, təhlil edir, mümkün təklifləri hazırlayır və rəhbərliyə təqdim edir.

**3.10.** Elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı bakalavryat tələbələrinin, magistrantların və müəllimlərin münasibətini öyrənir, təklifləri toplayır, təhlil edir və ümumiləşdirərək təkliflər verir.

**3.11.** Mərkəzdə xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tətbiq edilən innovasiyaların səmərəliliyinin artırılmasını istiqamətində işlər aparır. Sistemli analiz və proqnozlaşdırma əsasında tədrisin təkmilləşdirilməsi haqqında müvafiq strukturlara təkliflər verir.

**3.12.** Təhsildə yeni pedaqoji yanaşmalar mövzusunda seminarlar təşkil etməklə professor-müəllim heyətinə tədris fəaliyyətlərini planlaşdırmaqda kömək edir

**3.13.** Təhsil Nazirliyinin “Təhsildə Keyfiyyət Təminatı Agentliyi” idarəsinin tələblərinə uyğun olaraq müvafiq hesabatları hazırlayır və Universitetin rəhbərliyinə təqdim edir.

**3.14.** Universitetin fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərinə riayət etməklə, universitetin nizamnamə və əsasnaməsinə uyğun, müstəqil olaraq xarici tərəfdaşların, həmçinin qabaqcıl təşkilatların işini öyrənməklə ölkə daxilində və xarici dövlətlərdə müştərək müxtəlif mərkəzlərin, filialların, laboratoriyaların, texnoparkların və s. yaradılması barədə təkliflər hazırlayır və rektorluğa təqdim edir.

**3.15.** Universitet səviyyəsində normativ xarakterli aktların hazırlanmasına və təkmilləşdirilməsinə dair təkliflərlə rektorluğa müraciət edir.

**3.16.** Respublikadaxili və beynəlxalq təcrübəni öyrənir və uyğun təcrübənin tətbiqi ilə bağlı təkliflər verir.

## 4. Mərkəz müdirinin funksiyaları

**4.1.** Universitetin fakültələrində və kafedralarda keyfiyyətin təminatı məsələlərinin təşkilinə rəhbərlik edir.

**4.2.** Təhsil proqramlarının keyfiyyətinə, təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsinə və təhsilalanların bilik və bacarıqlarının səviyyəsinə nəzarəti həyata keçirir.

**4.3.** Universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi üçün mərkəzin inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən edir.

**4.4.** Mərkəzdə əmək intizamı qaydalarına riayət edilməsinə və şöbəyə məxsus əmlakın qorunmasına və səmərəli istifadə olunmasına nəzarət edir.

**4.5.** Universitetin elmi şurasında mərkəzi təmsil edir.

**4.6.** Universitet rəhbərliyi tərəfindən verilən tapşırıqların vaxtında və düzgün icrasına nəzarət edir.

**4.7.** Mərkəz əməkdaşlarının (müdir müavinin və mütəxəssislərin) vəzifə bölgüsünü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra intizamına riayət etmələrinə nəzarət edir, əməkdaşların həvəsləndirmə məqsədilə və lazım gəldikdə inzibati tənbeh tədbirləri görülməsi üçün rəhbərliyə təqdimatlar verir.

**4.8.** Mərkəzin fəaliyyəti barədə Universitet rektoruna mütəmadi olaraq məlumat və hesabat verir.

**4.9.** Universitetdə tədris prosesinin yaxşılaşdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaq üçün nizam-intizam qaydalarına nəzarət sisteminin təkmilləşdirilməsi, əməkdaşların və tələbələrin davranışlarını müəyyən edən qaydaların və həyata keçirilmə mexanizminin hazırlanmasında iştirak edir.

**4.10.** Təhsilin bütün formaları üzrə mühazirələrin, laboratoriya, praktiki və seminar dərslərinin keyfiyyətli aparılmasına nəzarət məqsədi ilə açıq dərslərdə iştirak edir, ölkədə və xaricdə qabaqcıl universitetlərin müvafiq qurumlarının iş təcrübəsini öyrənir, təhlil edir və mərkəzin iclaslarında müzakirə edir və yenilikləri tətbiq edilməsi və universietdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində ümumiləşdirilmiş təklifləri hazırlayır və rektora təqdim edir.

**4.11.** Tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə əmək bazarının tələblərini, işəgötürənin rəy və təkliflərini, ixtisas sahəsinin qabaqcıl mütəxəssislərinin və məzunların rəylərini öyrənir, fakültə və ixtisas kafedralarına müzakirə üçün göndərir, uyğun sahə üzrə keyfiyyət standartlarının (fənn proqramlarının, təhsil proqramlarının və planların) hazırlanmasında iştirak edir.

**4.12.** Fəaliyyət istiqamətlərinə uyğun universitetdə həyata keçirilən təhsilin keyfiyyət qiymətləndirməsi və ekspertizasına nəzarət edir, alınan nəticələrə dair məlumat və təkliflər hazırlayıb rektora təqdim edir, həmçinin elektron bazasını formalaşdırılmasına və yenilənməsinin təmin edilməsinə nəzarət edir.

**4.13.** Mərkəzin fəaliyyətinə dair illik hesabat hazırlayır və rəhbər struktura təqdim edir.

**4.14.** Mərkəzdə fəaliyyət göstərən əməkdaşların müasir informasiya-kommunikasiya texnologiyaları və xarici dil biliklərinə sahib olmalarına cavabdehlik daşıyır.

**4.15.** Şöbənin qarşısına qoyulmuş vəzifələrin vaxtında, yüksək keyfiyyətlə həyata keçirilməsi və icra intizamına əməl olunmasına nəzarət edir.

**4.16.** Universitetin Strateji Planı əsasında Mərkəzin fəaliyyət planını hazırlayır və onun icrasına nəzarət edir.

**4.17.** Keyfiyyət təminatı sahəsində olan beynəlxalq və yerli təcrübəni öyrənir və Universitetdə icrasına dair fəaliyyət planları hazırlayaraq icrasına nəzarət edir.

## 5. Müdir müavinin funksiyaları

**5.1.** Tədrisin keyfiyyətinin yüksəldilməsinə nail olmaq üçün tələbələrlə görüşür və sorğuların keçirilməsini təşkil edir. Keyfiyyətin yüksəldilməsinə dair təkliflər verir.

**5.2.** Mütərəqqi tədris texnologiyaları üzrə qabaqcıl təcrübəni öyrənir, professor-müəllim heyətinə, xüsusilə gənc müəllimlərə elmi-texniki köməklik göstərilməsi məqsədi ilə müxtəlif seminar və treyninqlər təşkil edir.

**5.3.** Professor-müəllim heyətinin qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, gənc müəllimlərin pedaqoji təcrübə toplamalarına köməklik göstərilməsi istiqamətində işlər aparır.

**5.4.** Ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının formalaşmasına şərait yaradılması, Universitetdə təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi və şəxsiyyətyönümlülük prinsipini əsas tutaraq tədris prosesinin keyfiyyətli təşkilinə, plan və proqramların planlaşdırılması və səmərəli yerinə yetirilməsinə dair təkliflər hazırlayır.

**5.5.** Tədris prosesinin daha da təkmilləşdirilməsinə, onun keyfiyyətinin yüksəldilməsinə və universitetin maddi-texniki bazasının yaxşılaşdırılmasına dair təkliflər verir.

**5.6.** Müəllimlər üçün yeni modul-kredit sisteminə əsaslanan stimullaşdırıcı ixtisasartırma sisteminin inkişaf etdirilməsini hazırlayır.

**5.7.** Akademik nailiyyətlərin yüksəldilməsi, tədrisin keyfiyyətinin artırılması professor-müəllim, tədris-texniki heyəti və tələbələrin müraciətlərini vaxtında cavablandırırır, əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi məsələsində bilavasitə iştirak edir.

**5.8.** Mərkəzdə hazırlanan tədris metodiki və hüquqi sənədlərin keyfiyyətinə nəzarət edir.

**5.9.** Keyfiyyət siyasətləri, prosedurları və standartları daxili və xarici maraqlı tərəflərlə əlaqələndirməni təmin edir.

**5.10.** Müxtəlif fənnin tədris keyfiyyətini öyrənir, təhlil edir və tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün təkliflər hazırlayır və şöbə müdirinə təqdim edir.

**5.11.** Univeristetin tədris prosesinin təşkili, tədqiqat və innovasiya mühiti, mövcud problemlər və onların həlli yolları ilə bağlı akademik heyət arasında məmnuniyyət sorğuları keçirir və sorğuların nəticələrini təhlil edərək aşkar olunmuş çatışmamazlıqları aradan qaldırması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir.

**5.12.** Tədrisin keyfiyyətini qiymətləndirmək üçün tədris ili ərzində təhsilalanlar arasında müxtəlif mövzularda sorğular keçirir və sorğuların nəticələrini təhlil edərək aşkar olunmuş çatışmamazlıqları aradan qaldırılması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir.

**5.13.** Tələbə dəstək xidmətlərinin (yataqxana, yeməkxana tibbi və tyutor xidmətləri, və s.) səmərəliliyini qiymətləndirir və səmərəliliyin artırılması üçün təkliflər verir.

## 6. Mütəxəssislərin funksiyaları

**6.1.** Məşğul olduğu sahə üzrə tədris, metodiki və hüquqi sənədlərin hazırlanması işini həyata keçirir və hazırladığı sənədlərin keyfiyyətinə, düzgün tərtibinə, məzmununun aydın ifadə edilməsi və üslubu, tapşırığın vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə görə bilavasitə icraçı kimi məsuliyyət daşıyır.

**6.2.** Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə, öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün universitetin digər struktur bölmələrindən lazımi məlumat və materiallar alır, işin keyfiyyətini yaxşılaşdırmaq üçün tövsiyələr verir və köməklik göstərir.

**6.3.** Mərkəzin səlahiyyətlərinə aid olan məsələlərlə əlaqədar qərarlar, əmrlər, digər normativ-hüquqi aktları hazırlayır və mərkəz müdirinə təqdim edir.

**6.4.** Yeni innovativ təlim metodlarının tədrisdə tətbiqi məqsədi ilə praktiki eksperimentlərin keçirilməsini təşkil edir və bununla bağlı professor-müəllim heyətinə və tədris-köməkçi heyətə lazımi köməklik göstərir.

**6.5.** Təhsilin inkişafı üzrə həyata keçirilən layihələrin, təhlil və planlaşdırma məsələləri ilə əlaqədar sənədlərin hazırlanması prosesində iştirak edir.

**6.6.** Mərkəzin elektron məlumat bazasının yaradılmasında, təkmilləşdirilməsində iştirak edir və yerləşdirdiyi məlumatlara cavabdehlik daşıyır.

**6.7.** Əlverişli biznes mühitinin inkişafı məqsədilə xarici universitetlərin tədris

prosesini öyrənir, təkliflər hazırlayır, tətbiq edilməsində iştirak edir.

**6.8.** Digər təhsil müəssisələri, elmi-tədqiqat institutları, universitetin ixtisas profilinə uyğun müxtəlif zavodlar, idarələr, təşkilatlar və digər müəssisələrdə çalışan mütəxəssislərlə əlaqə saxlayır, bu qurumlar barədə məlumat toplayır, təhlil edir və daha mütərəqqi və innovativ metodların tətbiqi barəsində təkliflər hazırlayıb mərkəz müdirinə təqdim edir.

**6.9.** Mərkəzin kargüzarlıq işlərinin düzgün və tələblərə uyğun tərtibinə, idarə edilməsinə, istifadəsinin əlçatan olmasına cavabdehdir.

**6.10.** Mərkəzin fəaliyyəti haqqında məlumat bazasını formalaşdırır, internet saytının yaradılmasınında iştirak edir və yerləşdirdiyi məlumatlara məsuliyyət daşıyır, bu informasiyanın daim yenilənməsini təmin edir.

**6.11.** Tapşırığa uyğun olaraq sənədləri hazırlayır, qabaqcıl pedaqoji təcrübəni öyrənir və onu ümumiləşdirərək yayır. Universitetdə çalışan professor-müəllim heyətinə təlimin keyfiyyətini yaxşılaşdırmaq üçün tövsiyələr hazırlayır və köməklik göstərir.

**6.12.** Tədris müəssisələri işçilərinə və təhsilin digər sahələrində çalışan mütəxəssislərə təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına və elmi təcrübi eksperimentlərin keçirilməsinə köməklik göstərir.

**6.13.** İxtisaslar üzrə tədris olunan fənnin keyfiyyətini öyrənir, təhlil edir və fənnin tədris keyfiyyətini yaxşılaşdırmaq üçün təkliflər hazırlayır.

**6.14.** Öz işi haqqında şöbə rəhbərinə hesabat verir.

## 7. Mərkəzin hüquqları

**7.1.** Mərkəzin fəaliyyəti barədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək.

**7.2.** Öz səlahiyyətlərinə aid olan məsələlərin həll edilməsi üçün Universitetin müvafiq struktur bölmələrindən və digər qurumlardan zəruri sənədlər, statistik məlumatlar və s. materiallar tələb etmək və onlara lazım olan zəruri sənədləri və materialları müəyyən olunmuş qaydada təqdim etmək.

**7.3.** Öz səlahiyyətləri daxilində kütləvi tədbirlər təşkil etmək.

**7.4.** Fəaliyyət istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və uyğun təcrübənin tətbiqi ilə bağlı rektorluğa təkliflər vermək.

**7.5.** Mərkəzdə professor-müəllim heyəti və tələbələr arasında müxtəlif məsələlərə dair rəy və ehtiyac-analiz sorğuları keçirmək.

7.6. Yaranmış zərurətlə əlaqədar iş yerlərinə, auditoriya və laboratoriyalara maneəsiz daxil olmaq, nəzarət və qiymətləndirmə tədbirlərini həyata keçirmək.

7.7. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Elmi Şura qərarı əsasında müxtəlif tərkibdən ibarət komissiyalar qurmaq və onların fəaliyyətinə nəzarət etmək.

7.8. Universitetdə daxili keyfiyyət təminatı sistemlərinin fəaliyyətini dəyərləndirmək və onların təkmilləşdirilməsi istiqamətində təkliflər vermək.

7.9. Universitetin tələbə qəbulu proqnozunun formalaşdırılması prosesində iştirak etmək.

7.10. Öz fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq.

7.11. Öz fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək.

7.12. Universitetin struktur qurumlarına, fakültə dekanlıqlarına, kafedralara mərkəzin fəaliyyət dairəsində zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq.

7.13. Mərkəzin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə əlaqələndirmə və öz daxilində məşvərət orqanları, işçi qrupları yaratmaq, digər təşkilatlarda yaradılmış orqanların və işçi qrupların fəaliyyətində iştirak etmək.

7.14. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə daxili və xarici müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək.

7.15. Beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək.

7.16. Fəaliyyət istiqamətlərinə aid olan məsələlər və keyfiyyət təminatı mövzusunda fərdlərin səriştələrinin artırılması üzrə xarici ölkələrdən mütəxəssislər cəlb etməklə konfranslar, müşavirələr, seminarlar, təlimlər keçirmək və digər tədbirlər təşkil etmək.

7.17. Qabaqcıl ölkədaxili və beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək.

7.18. Təhsil proqramlarının təkmilləşdirilməsi barədə təkliflər vermək.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin** "21" fevral 2018-ci il tarixli Elmi şurasının iclasında təsdiq edilmişdir (protokol № 5).